***Sayalı yurdlar***

***BƏHRUZƏR RÜSTƏMOV***

# OĞUZ YURDUNUN TƏBİƏTİNDƏ ƏFSANƏVİ KOROĞLU İZLƏRİ



***"Koroğlu" Tovuzun Əlibəyli və Yuxarı Öysüzlü bölgələrinin qovuşuğunda əsas hissəsi Mülkülü kəndinin ərazisində yerləşən unikal dağ-abidədir.***

***Koroğlu təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının ortaq qəhrəmanıdır. Xalqımızın halal dastanı olan "Koroğlu" boylarında millətimizin ruhunu dik saxlayan dəyərlər, elə kodlaşdırılmış enerji var ki, onlar bütövlükdə xalqımızın milli-mənəvi dəyərlər sisteminin əsasını təşkil edir. Qəhrəmanlıq simvolu olan Koroğlu adı və toponiminə tarixi Vətən torpaqlarımızın çox yerlərində rast gəlmək olar. Tovuzumuzda belə ad və abidələrdən üçünü tanıyıram. Onlardan biri Mülkülüdəki "Koroğlu"dur. Dəniz səviyyəsindən 830 m yüksəklikdə yerləşən bu dağa, qəribədir ki, yerlilər heç vaxt dağ demir. Ondan kiçik yüksəkliklərə-Dəryən dağına, Ağdağa, Dolmatlı dağına, Quş dağına, Ceyran dağına dağ deyir, onusa sadəcə "Koroğlu" adlandırır.***

## Toponimlər- milli kimliyimiz

Yeri gəlmişkən, Mülkülüdəki toponimləri də burada verirəm ki, qoy heç nə itə-bata düşməsin! Axı, torpağın da, yerin də, daş-qayanın da yaddaşı var və onlar xalqın keçdiyi yolu, gəlmiş-keçmişi gələcəyə ötürür. Yer-yurd adları həm də ölməz-itməz abidələrdir və milli kimliyimizdir: "Koroğlu", Uçux, Uçuğun beli, Alban qəbirstanlığı, Rəhim kalafası, Mağara və ya Mağaza, Çınqıllıq, Yarınoux çınqıllığı, Otağın qabağı, Quzuluq, Zağa taxçası, Qüllə və ya Qillə, Mal qəbirstanlığı, Xırman yeri, Qıllı təpə, Kişmişdik, Çürük dərə, Ağotlu silvi, Hacallı yolu, Çaylı, Bəzək dərəsi, Vesqan dərəsi, Qardalı qayası, Dolmatlı, Şərifli, Şərifli yurdu, Kalafalar, Böyük düz, Bəşir qayası, Mağara qayası, Qara bulaq, Qanlı dərə, Çay, Kəhriz, Kəhrizin üstü, Quyular, Dəvə damı, Dəryən dağı, Yasovullu yurdu, Buzxana, Səfqulu, Səfqulunun beli, Daş çıqqıldayan, Əhməddər yurdu, Alümbətdi yurdu, Noylu bulaq və ya Hamza bulağı, Uçuğun döşü, Qayvalı bulağı, Novruz bulağı, Tahir bulağı, Şərifli bulağı, Rus bulağı və ya Tat Məhəmməd bulağı, İbrahim bulağı, Harava dərəsi, Bazar yolu, Qaya Tağı, Uj güney, "Koroğlu"nun dalı, Qaya

Tağının beli, Həmdullah ölən və ya Tik daş, Göy güney, Orta güney, Orta kəmər, Bala Fərzalı, Böyük Fərzalı, Ağdağ, Palıddı, Maşaiskəndər yalı, Çopurrux, Boalı, Baydalı, Musa çökəyi, Mansır çökəyi, Cülyəlilər, Dam qaya, Qarağacdıq, Xaçın ağzı, Qoşanüy, Qını əkən, Astan günnüyü, Hamza çökəyi, İmam ehsanına əkilən, Qamışdıq, Kalafalıq, Tülkü tələpəsi, Cəfər təpəsi, Qızılqaya, Qaçaqlar mağarası, Dumru yəhər, Div qalası, Avdı dumrusu, Məhər kalafalığı, Dovşan təpəsi, Kərim dağdağanlığı, Qızılqayanın qabağı, Oyuğun beli, Arxac dərəsi, Camış güneyi, Eminallaın yurd yeri, Dərin yol, Dəryənin dalı, Qarannıq dərə, Mirzalı qayası, Aşacaq (kənddə üç Aşacaq var), Palıddı böyürtikanlığı, Xuman yolu, Qolpun, Vəzir kalafalığı, Cəlil vurulan...

***Aşağı Mülkülüdəki*** toponimləri də, məqamıdı, burada sadalayıram: Xunam, Xasadar, Gədə qobu, Gen qobu, Boz təpə, Qara quzey, Xanağanın yataq yeri, Şəmşilinin yataq yeri, Kalvayı Kərimlinin yataq yeri, Şəriflinin yataq yeri, Qınıların yataq yeri, Alınçalı, Kalvayı Əsgərin dəyirman yeri, Kərəmin dəyirman yeri, Tat ölən, Acı və ya Bağırsaq, Ağdaş, Pul təpə və ya Pullu təpə, Sərhəd cığırı, Hacı Şirin düzü, Qışlaq, Kür yaxası, Alagöllər (Əlöyüllər), Torpaqqala,  Qara börk, Sümüklü dərə, Saqqızdı dərə, Xuman yolu, Əloyül, Ərtellər (Artellər), Kişmişdi təpə, Sarının yoxuşu, Xəznəlik, Alümbət təpəsi, Babaş təpəsi...

## Qəşəmin tapdığı "Koroğlu"

Qayıdaq mətləb üstünə ki, Mülkülüdəki bu hündür dağa niyə eləcə "Koroğlu" deyirlər? Bunun açmasını 17-18 il bundan irəli çözməyi bacaran bizim Qəşəm Bəhruzərə həmişə alxışçıyam. Bir dəfə Xaçın ağzı və Qızılqayanın yanı səmtdən baxanda Qəşəm dedi ki, bir baxın, indicə tapdım niyə ona "Koroğlu" deyirlər. Sonra da əlini uzadıb onu göstərdi və barmaqları ilə də arxası üstə dirsəklənib uzanan bahadırın sifət cizgilərini çəkdi ki, odu bax  Koroğlu babamızın sinəsi, çənəsi, dodağı, burnu, eşmə bığları, gözü, alnı, alın qırışları, qədim türklərdə olan sayaq kəkilli hörükləri, sifətinin almacıq sümüyü...

Heyrətimdən quruyub qaldım: doğrudan da əsl Koroğlumuz-qoç Koroğlumuz, azman igidimiz, ərənimiz, qos-qoca pəhləvanımızın özüdü-dirsəklənib ana torpağın keşiyini çəkir. Tanrı, böyük Yaradan qayanı sanki öz əli ilə yonub-yonqalayıb nər Koroğluya döndərib.

Həyatda mənə elə gəlir, heç nə təsadüfi olmur. Səhnədə və kinoda mənəvi atamız Koroğlunun obrazını yaratmaq istəyəndə, ya rəssam onun portretini işləyəndə qəhrəmanın ruhu gəlir o rejissorun, o rəssamın qəlbinə hakim kəsilib surəti gözünə görünür və obraz kimi, portret kimi yaradır onu yaradıcı. Böyük Üzeyir bəyin "Koroğlu" operası tamaşaya qoyulanda da belə oldu: ölməz Bülbülü elə qrimlədilər ki, sanki bizim Mülkülüdəki

"Koroğlu"muzun Qəşəm tapdığı profil də, elə bil, onun eynidir. Bunu qoyum ona gedim, bu tapdığımız (əslində heç nə tapmamışdıq, eləcə oğlumun bəsirət gözü açılıb, damarlarındakı qanın diqtəsi ilə alt şüurumu, təhtəlşüurumu, genetik kodla ötürülmüş daşlaşmış yaddaşmı oyanıb abidə dağımızı-"Koroğlu"nu ona olduğu kimi göstərmişdi) Koroğlu görünüşünü yeddi arxa dönəni burada yaşayan, özü də bu torpaqdan əmələ gələn yerli sakinlərə, ziyalılarımıza, araşdırmaçılara göstərmişdim (həm yerində natura-da, həm də "Qarğınsız" və "Keçmiş gələcək" kitablarımda dərc olunan foto-larda), onlar əlini birini bərkdən o birinə vuraraq: "Bay sənin, elə bil ki, pəhləvandı",- deyib mat qalmışdılar və etiraf edirdilər ki, bəlkə "Koroğlu"ya min dəfə baxıblar, ancaq o görünüşü heç vədə görməyiblər. Heç keçənlərdən, ata-babalarından da bu haqda bir şey eşitməyiblər.



## Qutsal nümunə

Qəhrəmanlıq simvolu olan "Koroğlu"muzun çox böyük ruhi enerjisi var. Tanrının yaratdığı bu möcüzəli məkanın haləsi qeyri-adidir. Minilliklərdən bəri onun başında Novruz tonqalları qalanır. Bizim yerin insanları "Koroğlu"ya ən qutsal abidə kimi yanaşıb ona tapınırlar. Adamlarımız dilək diləyir, muradına yetəndən sonra fəsəli bişirib, şiriniyyat gətirib "Koroğ-lu"nu ziyarətə gələr, ya əhdinə çatıb sevinəndən sonra bu möcüzə dağ-abidədə tonqallar çatarlar. Atamın yaranışı, bir neçə il öncə anam Səmayənin ulu nənə kimi pak diləyinə yetməsini elə biz özümüz, öz nəsilimiz-kökümüzdə canlı olaraq sınamışıq .

Babam Qəşəm məşədi Rüstəmlə nənəm Xanxanım Murğuzu Tanrı çox sınağa çəkir. Neçə il dalbadal yaranan körpələrdən heç biri əllərində-

ovuclarında qalmırmış. Axır-axırda Yasovulluda əslən Ərdəbil Ocağının övladlarından olan Səlmi ciji Xanxanımı da, təzə doğulmuş körpəni də götürüb qalxır "Koroğlu"ya. Çağanı qoyur qayanın üstünə, sonra da gətirdikləri qatdamanı, fəsəlini, pul nəzirini "verirlər" qayaya. Hündürdən üç dəfə təkrarlayırlar ki, bax ay qaya, pul-paranı verdik-uşağı aldıq. Adını qoyduq Qayadan Verib Aldığımız-Qayvalı.

Allah gözünüzə işıq versin, 1929-cı ildə olan o əhvalatdan sonra atam Qayvalı Qəşəmlə yanaşı babamın daha üç övladı da dünyaya gəlir, Tanrı sizinkiləri də pənahında saxlasın, indi, törəmələri, maşallah, bir obadı.

Uşaqkən o əhvalatı bildiyimə görə maraqlanıb qalxmışam, başına dönə-dönə dolanmışam "Koroğlu"nun .

## Unikal abidə

"Koroğlu"muz uzaqdan sal bir qaya kimi görünür. Əslində "Koroğlu" başdan-başa tarixi abidədir. Qaya-dağ aşağıdan mərtəbə-mərtəbə hörülərək böyük istehkamlar sisteminə çevrilib və yenilməz qala formasına salınıb. Qalanın elə yeri var , relyefə görə divarın qalınlığı 3-5 metrdir. Aqıl babalar elə ustalıqla yaradıblar ki, onların əllərinin yadigarlarına baxanda günü bu gün də heyrətlənməyə bilmirsən. Unikal arxitekturaya malik bu "Koroğlu"ya baxanda adamın inanmağı gəlmir ki, bu insan əli ilə ərsəyə yetibdi. Doğrudur "Koroğlu" öz başındakı qala və Koroğlu evi deyilən (əslində yerlilərin bəzən otaq adlandırdığı o tikili tapınaq yeridir,öz quruluşuna görə məbədə daha çox oxşayır) tikili olmaqla iki abidə şəklində tarixi abidə kimi dövlət qeydiyyatına alınıb. Həqiqətdə isə "Koroğlu" özü başdan-başa misilsiz bir maddi-mədəniyyət nümunəsi, ulu babaların indiki nəslə göndərdiyi ölməz-itməz ismarıncdır. Orada, arxefaktlar, qala divarları, bürclər, pilləkənlər, daş mağaralar, yeraltı yollar, dərin-dərin quyular, istehkamlar, qalaçalar, qüllələr, qayadan çapılmış gözətçi sığnaqları, daş hovuzlar və quyular, sənətkar məhəllələri, mədəni təbəqə, saxsı və keramika nümunələri, gil möhürlər, od və tüstü ilə xəbərləşməyə xidmət edən qüllələr... bir sözlə, dünya binnət olandan özündə müxtəlif mədəniyyətləri birləşdirən elmi faktlar saysız-hesabsızdır. Tarixin əbədi izlərini yaşadan və elmi yanaşmalarla heç vaxt öyrənilməyən bu misilsiz abidəmiz öz yandımcan tədqiqatçısını gözləyir.

## Bir xatirə

1967-cı il idi. Yay tətilində Mülkülüdə dədə-baba mülkümüzdə idik. Xəbər tutduq ki, alimlər gəlib Dəryən dağından durbinlə "Koroğlu"nu "öyrənir". Babam onları çağırtdırdı, uşaq vaxtı başına gələni danışdı:-Ay bala-oğul, əvvəla bu "Koroğlu" elə-belə dağ döyül. Bura müqəddəs bir Ocaq və adamları muradına çatdıran bir yerdi. Uşaq vaxtı "Koroğlu"nun sinəsində

mal otaranda bax onun o Ağdağ səmtində iri bir daş vardı, ona əlimdəki ağacla vuranda elə bil, altı çox böyük bir boşluqmuş, mağaraymış kimi əks-səda verir, bir müddət sonra boğuq səs gəlirdi. Məsləhətdi ki, gedib bir ora baxasınız... "Alimlər" fikir vermədilər, daha şər qarışdığına görə maşınlarına minib getdilər.



## Yeraltı yollar

"Koroğlu"nun Mülkülü səmt qabağından baxanda yerlilərin "mağaza" dediyi bir mağara var və bu mağaranın dibi görünmür. Adamlar orada bir müddət irəli gedəndən sonra üşərgələnir, həm daş uçqunu, həm nəmişlikdən və həm də vahimə basdığından irəliləyə bilmir. Zaman-zaman ora girən çəpiş, toğlu gedir və bir də geri qayıtmır. Adamlarımız inanır ki, bu, "Koroğlu"nun, vaxtilə dağ döşündə mövcud olmuş iri yaşayış yeri və şəhərin, indi ondan nişanə qalan şəhərgahın, qayanın başındakı qalanın gizli yollarından biridir. Köhnə kişilər həm də deyirmişlər ki, qayanın altında yol haçalanır, biri günbatana (babam deyən), biri isə Kürə doğru istiqamətlənir.

Doğrudan da elin-elatın sığınıb istilaçılarla mübarizə apardığı "Koroğlu"dakı qala, iç qala, sarp qaya daşlarından çapılaraq düzəldilmiş sədd və baryer-istehkamların müdafiəçiləri üçün belə yeraltı yolların olması həyatı əhəmiyyətə malik idi. Bəllidir ki, qalaların yeraltı yolları üç məqsəd daşıyırdı: mühasirə zamanı su təchizatı, silah-sursat və azuqə çatdırılmasında; müdafiəçilərə əlavə kömək yetişdirməkdə; qala Allah eləməmiş, süqut edərsə gecə ikən onu tərk etmək üçün (ətraflı bax www.youtube/behruzerle

kecmisgelecek №-1 Koroğlu).

## Hüsnü cəlalə, sfinks və boz qurd

Vüqar-əzəmət simvolu olan "Koroğlu"muz dörd bir yandan baxanda tamam ayrı-ayrı profil və görkəmlərdə boy verir. Dedik ki, Mülkülüdəki Qızılqaya səmtindən o, qoç Koroğlunun qayada çapılmış heykəlidir. Tovuz şəhərindən çıxıb üzü Öysüzlü, Mülkülü və Əlibəyliyə tərəf irəliləyəndə isə "Koroğlu"nun adamı mat-məəttəl qoyan görünüşü açılır: torpağın əbədi qoruyucusu olan şir sfinksi! Pəncələri üstə qısılıb daşlaşmış-heykəlləşmiş şir! 30 ildən yuxarıdır, bunu insanlara göstərirəm; təəccüblənirlər ki, yalan olmasın, min-on min dəfə yanından keçmişik, ya ona biz də baxmışıq, bə niyə görməmişik?! Ariflər isə qayıdıb söyləyir ki, Vətənin daşı-qayasına da əməlli-başlı baxmaq lazımdı, başımızı yerdən qaldırıb bir ucaları da ürəklə seyr edib gərək hər şeydə məna axtarasan.

Mülkülüyə çatmamış Yuxarı Öysüzlü də Çürük dərə qıyısından baxanda isə "Koroğlu"nun qayasının yarıqlarında Allah TəbərrüküTəalanın mübarək adının ərəb hürufatı ilə yazıldığını-başqa sözlə "hüsnü cəlaləni" görmək olar. Həmin o yazının həkk olunduğu sütun qayaların sinəsində də çoxlu sirli-sehirli yazılar və işarələr! Oxuyub dərk edib yayanlara alqışlar olsun!

Əlibəylidə "Dağdağanın dibi"ndən baxanda "Koroğlu"nun görünüşü ağzını göyə tutub ulayan boz qurdu andırır.

## Tarixin hekayəti və xalqın hikməti

Bənzərsiz "Koroğlu"muz Tanrının yonduğu qayalarıynan, taxçalarınnan, təbii-corğafı şəraitinnən, daha sonra babalarımızın, insan oğlunun yaratdığı bürclər, qalalar və istehkamlarla çox qeyri-adi və unikaldır. Burada bir bala-ca lazımi hazırlığı olsa bir uşaq belə bu qala-tapınaqda bir qoşunun qabağını saxlayasıdı. Elə bu hündürlükdən, mətərisləndiyi o qayaların dalından düşmənin üstünə daş hellətsə, qatran töksə, od-alov yağdırsa mənəm deyən qoşunlar pərən-pərən olasıdı.

Buradakı silinməz izlər, ölməz-itməz yadigarlar göstərir ki, bu, elə beləcə də olub. Zaman-zaman bu həndəvərlərdən qırılmış qılınc, nizə parçaları, indiki insan sümüklərindən az qala üç-dörd dəfə iri olan kəllə, sklet, çoxlu döyüş ləvazimatlarının qalıqları, qalanın içindən və "Koroğlu"nun döşündəki şəhərgahdan türkdilli alban tayfalarına aid svastika, günəş, ay və müxtəlif səma cisimlərini özündə əks etdirən gil möhürlər, üstündə həndəsi və nəbati fiqurları, onlardan da daha çox ağacın yarpaq ayası həkk edilmiş sinə daşları tapılıbdı. Bəzən həvəskarların, çox vaxt da qızılaxtaranların və qara arxeoloqların apardıqları qazıntılar zamanı çoxlu maddi-mədəniyyət nümunələri üzə çıxıb. Maraqlıdır ki, buradakı çox qədim qəbirstanlıqdan

sinə və baş daşı qoyularaq tam şəkildə hazırlanmış qəbir kameralarının bəzisində heç bir skletə rast gəlinməmişdir. Bəzisində isə İslama qədərki dəfn adətlərinə aid və tarixi çox qədim olan küp qəbir mədəniyyəti nümunələri ilə qarşılaşmışlar.

...Adamın burada sinəsi qabarır, duyğulanır. Şükranlıqla ürəkdən deyirsən:-Allah sizə rəhmət eləsin torpaq qoyub-yadigar qoyub gedənlər! Bizə necə gözəl torpaqlar, necə gözəl yurdlar əmanət qoyubsunuz! Bizimsə borcumuz bu əmanətləri necə var eləcə saxlamaq, ayağımızı yerə bərk dirəyib babalarımızdan əmanət qalan yadigarları qoruyub saxlamaqdır. Onda onların ruhu da bizim alxışçımız olar və bizi yaşadar- biz də, nəsillərimiz də çörək taparıq, həyat taparıq-yaşayarıq. Qoy onların daim başımız üstündə olan alxışçı ruhları-"Koroğlu" kimi yadigarlarını vaxtaşırı ziyarət etdiyimiz ruhlar daim bizlərə, övladlarımıza, Vətənimizə və millətimizə yar olsun!

..."Koroğlu"nun gizlinləri deməklə başa gələn deyil. Mülkülü Qızılqayasının qabağından "Koroğlu"ya baxanda azman, əsl Koroğludu ki durub: arxası üstə dirsəklənib Vətən keşikçisidir. Bundan da etibarlı keşikçi ola bilməz. "Koroğlu"muz nər kimi, qoç kimi Vətən keşiyində dayanır. Bu torpaq müqəddəs və qeyri-adi torpaqdır! Möcüzə torpağımızın "Koroğlu"su qoy həyat neçə ki var, o da var olsun! Ondan da sədaqətli və sadiq Vətənə, torpağa, millətə ikinci bir övlad ola bilməz! Qoy var olsun "Koroğlu"muz. Yaşa, Koroğlum, Yaşa! Yaşa, qoç Koroğlu, yaşa! Yaşa-yaşa bizi də yaşat, milləti də yaşat! Sənin ruhun, elə bir enerjin var ki, mədəni-ruhi cəhətdən daşıdığın məna min illər indən sonra da bu milləti dimdik ayaqda saxlayasıdır.

Dəyərli oxucu, gərək bağışlayasan ki, "Koroğlu"ya müraciətlə mən özümü saxlayammayıb daha çox alqışlarımı söylədim. Axı, "Koroğlu"nun mənəvi-ruhi qavrayışı elədir ki, bu, elə-belə də olmalıdır! Eyni zamanda bu dağlar və babalarımızın yaratdığı möhtəşəm qalalar ("türmə" yox ha, həyatda əbədi var olub qalmaq mənasını verən qala!) təkcə müdafiə istehkamı rolunu oynamayıb, o, həm də keçmişdən bu günə gəlib çatan maddi-mədəniyyət nümunələri, babaların, ötənlərimizin-ərənlərimizin bizlərə ismarıcıdır.

## SUMMARY


### Legend in Oghuz Land's Nature

The presented article is about toponyms related with our hero "Koroghlu" and its traces in one of the legendary land of Azerbaijan – Tovuz and its villages. The author gives several examples and explains their meanings and ethymology. He emphasizes that these mountains and towers are not only defence fortification, but also inheritance of our ancestors.